# "Prezident İlham Əliyevin din siyasəti: dialoq və əməkdaşlıq" mövzusunda konfrans keçirilib

**Dekabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Prezident İlham Əliyevin din siyasəti: dialoq və əməkdaşlıq" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə ərsəyə gətirilmiş "Müzəffər Komandan" sənədli filmi nümayiş etdirilib.

Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycandakı bütün dinlərin nümayəndələri dini ayinlərini, öz ibadətlərini sərbəst şəkildə yerinə yetirirlər. Bu gün Azərbaycan əhalisinin təxminən 96 faizi müsəlmandır.

Azərbaycanın müsəlman dünyasının bir parçası olduğunu vurğulayan komitə sədri qeyd edib ki, ölkəmiz İslam Əməkdaşlıq Təşkilatının üzvüdür, bununla yanaşı, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri var.

Mübariz Qurbanlının sözlərinə görə, hazırda Azərbaycanda qeyri-müsəlman icmaların sayı 37-dir.

"Azərbaycan müstəqilliyini bərpa edəndə cəmi 17 məscid var idisə, bu gün onların sayı 2253-dür. Yalnız son 20 ildə Azərbaycanda 435 məscid inşa edilərək istifadəyə verilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda dini abidələrin bərpası işləri gedir. Ermənilər istər islama, istərsə də xristianlığa və digər dinlərə qarşı vəhşilik ediblər", - deyə komitə sədri vurğulayıb.

Azərbaycanda din adından istifadə edən radikal, ekstremist qrupların aradan qaldırılması istiqamətində işlərin davam etdirildiyini deyən Mübariz Qurbanlı həmçinin bildirib: "Heç bir din radikalizmə xidmət etmir, bütün dinlər əmin-amanlığa çağırır. Amma dindən sui-istifadə edənlər var. Bu cür halların aradan qaldırılması istiqamətində geniş maarifləndirmə işi aparılır".

Müstəqilliyimiz bərpa edildikdən sonra Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı dövlətdin siyasətinin daha da möhkəmləndiyini vurğulayan komitə sədri əlavə edib: "Son illərdə Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması və milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılmasında Prezident İlham Əliyevin xidmətləri danılmazdır".

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev qeyd edib ki, qırx dörd günlük Vətən müharibəsi Azərbaycanda din siyasətinin hansı səviyyədə olduğunu nümayiş etdirdi: "Təxminən 12 din və məzhəb təmsilçilərinin iştirak etdiyi müharibədə Azərbaycanın bir nəfər də fərarisi olmadı. Amma Ermənistanda 12 min fərari oldu. Sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən sonra Fransa başda olmaqla, bəzi dövlətlər Azərbaycanı təcrid etmək istəyirdilər. Amma istəklərinə nail olmadılar".

Digər çıxış edənlər - Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, arximandrit Aleksi Nikonorov, Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili mövzu ilə bağlı fikirlərini bölüşüblər.